9 May - Faşizm Üzərində Qələbə Günüdür!

18 (1375)

8-14 may 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN VYETNAMLA İQTİSADİ VƏ TİCARİ ƏLAQƏLƏRİN İNKİŞAFINA BÖYÜK ƏHƏMİYYƏT VERİR”



Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev “Vietnam News Agency” agentliyinə müsahibəsində söyləyib.

***“2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur”,*** - deyən dövlətimizin başçısı ölkələrimizin neft sahəsində də qarşılıqlı fəaliyyət göstərdiklərini vurğulayıb.

## “AZƏRBAYCANLA VYETNAM ARASINDA MƏDƏNİ ƏLAQƏLƏR MÜXTƏLİF TƏŞƏBBÜSLƏR VASİTƏSİLƏ İNKİŞAF ETMƏKDƏDİR”

“Ölkələrimiz arasında mədəni əlaqələr müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir”.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev “Vietnam News Agency” agentliyinə müsahibəsində bildirib. Dövlətimizin başçısı qeyd edib: ***“Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş “Əfsanə yaradanlar” filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi”.***

Prezident vurğulayıb ki, Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir.

## AZƏRBAYCANLA VYETNAM ƏMƏKDAŞLIQ POTENSİALINI BUNDAN SONRA DA İNKİŞAF ETDİRMƏK ÜÇÜN BÜTÜN İMKANLARA MALİKDİR

“Ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir”.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev “Vietnam News Agency” agentliyinə müsahibəsində söyləyib.

İqtisadi-ticari münasibətlərə toxunan dövlətimizin başçısı qeyd edib ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

## AZƏRBAYCANLA BELARUS ARASINDA ƏLAQƏLƏR MÖHKƏM DOSTLUĞA VƏ QARŞILIQLI ETİMADA ƏSASLANIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin



məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini deyib.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulandı. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparılıb. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verilib.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edilib. Belarusun Baş naziri ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirib. Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunulub.

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət edib.

## Milli Məclislə BƏƏ Federal Milli Şurası arasında Anlaşma Memorandumu

Milli Məclisin sədri Sahibə Qafarovanın Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri davam edir. Səfər çərçivəsində mayın 6-da bu ölkənin Federal Milli Şurasında keçirilən görüşdən sonra tərəflər arasında Anlaşma Memorandumu imzalanıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Azərbaycan Respublikası Milli Məclisi ilə Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası arasında Anlaşma Memorandumunu iki ölkənin parlament sədrləri Sahibə Qafarova və Saqr Qobaş imzalayıblar.

Qeyd olunub ki, bu sənəd tərəflər arasında birgə işi - koordinasiya və parlament təcrübəsi mübadiləsini daha da artırmağa imkan verəcək, əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək.



## “Azərbaycan bizim üçün xüsusi əhəmiyyətə malikdir”




“Azərbaycan bizim üçün xüsusi əhəmiyyətə malikdir. İki ölkəni bir-birinə bağlayan əlaqələr və ortaq hisslər mövcuddur”.

Bu fikirləri İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Araşdırmalar Mərkəzinin (IPIS) rəhbəri, nazir müavini Səid Xətibzadə “Regional proseslər kontekstində Azərbaycan-İran münasibətləri” mövzusunda keçirilən müzakirələr zamanı səsləndirib.

O deyib ki, son günlər Azərbaycan və İran arasında münasibətlərdə yeni bir mərhələ başlayıb. Bu mərhələnin əsas səbəbi isə İran Prezidentinin Azərbaycana səfəri olub.

***“İran və Azərbaycan xalqları arasında süni maneələr aradan qaldırılmalı, əlaqələr daha yüksək səviyyəyə çatdırılmalıdır”,*** - deyə Səid Xətibzadə vurğulayıb.

## Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı ilə “İctimai proseslər media müstəvisində” mövzusunda İkinci Forum keçirilmişdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Tədbirdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Ali Məhkəmənin Kollegiyasının sədri Sənan Hacıyev, həmçinin başqa dövlət qurumlarının idarə heyətlərinin üzvləri, nazir müavinləri və media subyektlərinin rəhbərləri iştirak etmişlər.

Forum medianın maarifləndirici funksiyasının və ictimai rəyin formalaşdırılmasında proaktiv rolunun artırılması, həssas məlumatların cəmiyyətə müəyyən prinsiplərə uyğun şəkildə ötürülməsi, media, dövlət qurumları və digər tərəflər arasında koordinasiyanın təkmilləşdirilməsi məqsədilə təşkil edilmişdir.

Tədbir açılış nitqləri və rəsmi hissənin ardınca “Konstitusiya və Suverenlik İlində media gündəmi”, “Nəqliyyat infrastrukurunda davamlı həllər media müstəvisində” və “Təhlükəsizlik rəqəmsal media mühiti: məlumatlı istifafəçilər” adlı panel sessiyalarla davam etdirilmişdir.

# Azərbaycan-Belarus biznes-forumu çərçivəsində bir sıra sənədlər imzalanıb



Bakıda keçirilən Azərbaycan-Belarus biznes-forumu çərçivəsində əməkdaşlıq haqqında bir sıra sənədlər imzalanıb.

Belarus Universal Əmtəə Birjası ilə Azərbaycanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) arasında qarşılıqlı Anlaşma Memorandumu imzalanıb.

Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və Belarusun Universal Əmtəə Birjasının İdarə Heyətinin sədri Aleksandr Osmolovski imzalayıblar.

Sonra Azərbaycan və Belarus şirkətləri arasında kənd təsərrüfatı, sənaye, emal və başqa sahələrdə əməkdaşlıq haqqında sazişlər imzalanıb.

# "Moody's" ADY-nin kredit reytinqini yüksəldib

Beynəlxalq reytinq agentliyi "Moody's" "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) uzunmüddətli korporativ ailə reytinqini (CFR) B1-dən Ba3 səviyyəsinə yüksəldib.

QSC-dən bildirilib ki, ADY-nin 2024-cü ili əhatə edən fəaliyyəti dövrü ərzində sərnişindaşıma, təhlükəsizlik və dayanıqlı inkişaf istiqamətlərindəki müsbət dəyişikliklər "Moody's" agentliyi tərəfindən kredit reytinqinin verilməsində əsas təsiredici amillər kimi rol oynayıb.

"Moody's"in hesabatında ADY-nin gəlirlərinin illər üzrə stabil artımı, maliyyə və iqtisadi göstəricilərinin yaxşılaşması, yükdaşıma həcmlərinin artması, xüsusilə tranzit rejimində yükdaşımaların artırılması istiqamətində ölkə və dəmir yolu hədəflərinin olması göstərilib. Bundan əlavə, ADY-nin ölkənin sosial-iqtisadi inkişafında xüsusi əhəmiyyəti vurğulanıb. Həmçinin ADY-nin gəlirlərinin artması fonunda maliyyə əmsallarının 2024-2025-ci illər üzrə bir neçə dəfə yaxşılaşması qeyd olunub.

Reytinqin yüksəldilməsinin digər əsas səbəbləri kimi ADY-nin borcunun əhəmiyyətli dərəcədə azalması, kredit göstəriciləri və kredit profilinin yaxşılaşması ilə əlaqədar maliyyə göstəricilərindəki müsbət tendensiya, həmçinin şirkətin davamlı inkişafı üçün əsaslı təməl yaradılması göstərilib.

Reytinqin yüksəldilməsi ADY-nin maliyyə etibarlılığını artırır və sabit gəlirliliyi ifadə edir.

# İslam maliyyəsi alətlərinin tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb

Mərkəzi Bankın sədr müavini Əli Əhmədov Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının baş investisiya direktoru və bankçılıq departamentinin baş meneceri Bahaaledin Kirimlinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Mərkəzi Bankdan bildirilib ki, görüş çərçivəsində ölkədə islam maliyyəsi alətlərinin tətbiqi və onun maliyyələşmə mənbələrinin diversifikasiyasındakı rolu ətrafında fikir mübadiləsi aparılıb.



Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər mühüm məsələlər və əməkdaşlıq perspektivləri müzakirə olunub.

# 2026-cı ildə Azərbaycanda neft hasilatının sutkada 0,6 milyon barel təşkil edəcəyi gözlənilir

Trend ABŞ Enerji İnformasiya Administrasiyasına (EIA) istinadən xəbər verir ki, əvvəlki təxminlərlə müqayisədə EIA yerli hasilat üzrə proqnozunu bir qədər korrektə edərək, gündəlik 0,01 milyon barel azaldıb.

Yenilənmiş proqnoza görə, 2026-cı ildə hasilat birinci rübdə sutkada 0,62 milyon bareldən başlayacaq, sonra ikinci rübdə 0,61 milyon, üçüncü rübdə 0,6 milyon, dördüncü rübdə isə gündəlik 0,59 milyon barel azalacaq.

2025-ci il üçün proqnoz dəyişməz olaraq gündə orta hesabla 0,62 milyon barel səviyyəsində qalır. Birinci rübdə hasilat sutkada 0,57 milyon barel, ikinci rübdə 0,62 milyon, üçüncüdə 0,64 milyona yüksələrək, dördüncü rübdə isə bir qədər azalaraq sutkada 0,63 milyon barel olaraq qiymətləndirilir.

Qeyd edək ki, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-mart aylarında ölkədə kondensat da daxil olmaqla, 6,9 milyon ton xam neft hasil edilib ki, bu da həcmin 7,3 milyon ton olduğu 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 397,5 min ton və ya 5,5% azdır.

# Azərbaycan 14-cü Asiya İnkişaf Fonduna 2 mln. dollar ianə edəcək

"Azərbaycan 14-cü Asiya İnkişaf Fonduna (ADF 14) 2 milyon ABŞ dolları məbləğində töhfə verəcək".

Bu barədə Asiya İnkişaf Bankının Azərbaycan üzrə idarəçisi maliyyə naziri Sahil Babayevin bank rəhbərlərinin işgüzar sessiyasına müraciətində bildirib.



O, Asiya İnkişaf Fondunun iqlim dəyişikliyi ilə mübarizədə və regionun ən yoxsul, ən həssas ölkələrinin dəstəklənməsində oynadığı mühüm rolu qeyd edərək Fondun təcili ekoloji problemlərin həlli üçün lazımi maliyyə vəsaiti ayırdığını deyib.

Nazir əlavə edib ki, Azərbaycan ADF-nin fəaliyyətini dəstəkləyir, onun iqlim problemlərinin aradan qaldırılmasında və regionda davamlı inkişafın təşviqində əhəmiyyətini qəbul edir: ***"Bununla bağlı ADF 14-ə 2 milyon dollar töhfə vermək üçün lazımi addımlar atır".***

# Vergi ödəyiciləri üçün "Kontragentləri araşdır" elektron xidməti istifadəyə verilib

Vergi orqanları tərəfindən vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin müasirləşdirilməsi və rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Dövlət Vergi Xidmətindən (DVX) AZƏRTAC-a bildirilib ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına onların icazəsi ilə çıxış əldə edilməsi vergi ödəyicilərinin hüquqlarına aiddir.

Eyni zamanda, təsərrüfat əməliyyatları aparılan zaman malları (işləri, xidmətləri) təqdim edən vergi ödəyicilərinin işgüzar nüfuzunun, maliyyə vəziyyətinin, qanuni sahibliyində müvafiq əmtəələrin mövcudluğunun, təcrübəyə, işçilərə və digər resurslara malik olmasının yoxlanılması məqsədilə onlar barəsində müvafiq təsdiqedici sənədlər almaq vergi ödəyicilərinin vəzifələri sırasındadır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanının icrasının təmin edilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən "Vergi ödəyicisinin digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə etməsi Qaydaları" təsdiq edilib. Qaydalara uyğun olaraq, eyni zamanda, Dövlət Vergi Xidmətinin inzibati yükünü artırmadan onun informasiya sistemlərində vergi ödəyicisinə aid kommersiya və vergi sirri təşkil edən məlumatların ötürülməsinə, yaxud idarə edilməsinə imkan verən "Kontragentləri araşdır" yeni elektron xidməti yaradılıb.

"Kontragentləri araşdır" elektron xidmətindən istifadə gücləndirilmiş elektron imza vasitəsilə vergi ödəyicilərinin vergi orqanlarında olan elektron kabinetləri üzərindən həyata keçirilir. Bu zaman sorğu edən şəxs müvafiq ekran vasitəsilə qarşı tərəfin (kontragentin) VÖEN-ini daxil etməklə ona vergi orqanında olan, o cümlədən kommersiya (vergi) sirri təşkil edən məlumatlara baxış imkanının verilməsi ilə bağlı sorğu göndərir. Sorğu edilən tərəf (kontragent) bu sorğunu qəbul və ya məlumatların açıqlanmasından imtina edə bilər.

Xidmətdən istifadə nəticəsində digər dövlət qurumları, bank və başqa maliyyə təşkilatları tərəfindən vergi ödəyicilərinin DVX-yə yönləndirilməklə kağız daşıyıcısında təsdiq olunmuş arayışlar əldə etməsinə ehtiyac qalmır.

# Gəncə Avtomobil Zavodunun məhsulları Türkiyə bazarına çıxarılacaq

"Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin məhsulları Türkiyə və digər ölkələrin bazarlarına çıxarılacaq".




Bunu jurnalistlərə açıqlamasında Zavodun Müşahidə Şurasının sədri, Milli Məclisin deputatı Xanlar Fətiyev bildirib.

Onun sözlərinə görə, bununla bağlı uzun müddətdir ki, işlər aparılır: "Bu sahədə uzun illərdir ki, çalışırıq. Yeni bağlanılan müqavilə Türkiyə və digər bazarlara çıxışı əhatə edir".

Xatırladaq ki, mayın 5-də Nazirlər Kabinetində Azərbaycan və Belarusun Baş nazirləri Əli Əsədov və Aleksandr Turçin arasında keçirilmiş geniştərkibli görüş çərçivəsində traktor texnikasının tədarükü üzrə əməkdaşlığın inkişafına dair Memorandum imzalanıb. Sənədi X.Fətiyev və Minsk Traktor Zavodunun baş direktoru Sergey Avramenko imzalayıblar. Bununla yanaşı, iki müəssisə arasında kommunal maşınların komplektlərinin tədarükünə dair Müqavilə imzalanıb. Sənədi X.Fətiyev və Minsk Avtomobil Zavodunun baş direktoru Valeri İvankoviç imzalayıblar.

X.Fətiyev bildirib ki, Belarus traktorlarının istehsalı sahəsində əməkdaşlıq davam edir: "Dünən bağladığımız müqavilə ilə bu istiqamətdə işimizi davam etdiririk. Hazırda ildə təxminən 700-800 traktor istehsal edirik. Zavodda kommunal texnikanın istehsalı da uzun müddətdir ki, həyata keçirilir. Biz bu sahədə də uzun illər əvvəl işə başlamışıq. Almaniyanın "Haller" şirkəti, Minsk Avtomobil Zavodu və Gəncə Avtomobil Zavodu arasında üçtərəfli müqavilə əsasında tullantı maşınları istehsal olunur və bu əməkdaşlıq davam edəcək".

# Azərbaycanın investisiya şirkətlərinin dövriyyələri açıqlanıb

"PAŞA Kapital" 18 milyard 655 milyon 452 min manat dövriyyə ilə 1-ci yerdədir.

Bakı Fond Birjasında (BFB) ticarət olunan bazarlar üzrə birja üzvlərinin dövriyyələri açıqlanıb.

Birjanın yaydığı məlumata görə, 2025-ci ilin yanvar-aprel ayları üzrə "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC 18 milyard 655 milyon 452 min manat dövriyyə ilə 1-ci, "ABB İnvest İnvestisiya Şirkəti" QSC 15 milyard 440 milyon 191 min manat dövriyyə ilə 2-ci, "Assist Finance İnvestisiya Şirkəti" ASC 2 milyard 441 milyon 945 min manat dövriyyə ilə 3-cü yeri tutub.

# Azərbaycan bank sektorunda aparılan islahatlarla regionda irəlidədir

Azərbaycan bank sektorunda aparılan islahatlarla Qazaxıstan və Ermənistanla yanaşı, regionun (Qafqaz və Mərkəzi Asiya) ən irəlidə olan ölkələrindən biridir.

Bu barədə "S&P Global Ratings" beynəlxalq reytinq agentliyindən bildirilib. Burada islahatların iki əsas istiqaməti önə çəkilir.

Birinci istiqamət tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsidir. Bildirilir ki, Azərbaycan bank sektorunda şəffaflığın artırılması, kapital adekvatlığının təmin olunması və institusional dayanıqlığın gücləndirilməsi məqsədilə mühüm addımlar atır. Bu islahatlar tənzimləyici orqanların effektivliyini artırmaqla yanaşı, maliyyə sabitliyinin qorunmasına da xidmət edir.

İkinci istiqamət isə bank sektorunda potensial böhranların sistemli şəkildə idarə olunmasına imkan verən sağlamlaşdırma (resolution) rejiminin tətbiqidir. "S&P" qeyd edir ki, Azərbaycan bu sahədə də Ermənistan və Qazaxıstanla birlikdə nəzərəçarpacaq irəliləyiş göstərən ölkələr sırasındadır.

Hesabatda ümumilikdə, EMEA regionunun (Avropa, Yaxın Şərq və Afrika) inkişaf etməkdə olan bazarlarında sağlamlaşdırma rejiminin tətbiqində ciddi ləngimələr olduğu vurğulanır. Qeyd edilir ki, bu bazarlar kapital və likvidlik üzrə beynəlxalq tənzimləmələri qəbul etsələr də, "resolution" rejiminin tam tətbiqinə keçid zəifdir.

Tərəddüdlərin səbəbləri sırasında isə hökumət dəstəyinə olan inamın zəifləyə biləcəyi narahatlığı, yerli kapital bazarlarının məhdudluğu, beynəlxalq maliyyə bazarlarına çıxış imkanlarının zəifliyi və banklar üçün əlavə maliyyə yükü yarana biləcəyi ehtimalı göstərilir. Həmçinin, bir çox ölkədə institusional çərçivələrin yetərincə inkişaf etməməsi bu prosesin qarşısını alan əsas amillərdən biri kimi qeyd olunur.

"S&P" bu səbəblərlə, regionda sağlamlaşdırma rejiminin genişmiqyaslı tətbiqinin yaxın dövrdə mümkün olmayacağını proqnozlaşdırır.



# Azərbaycan-Çin münasibətləri yeni mərhələdə: daha möhkəm dostluğa və daha güclü strateji tərəfdaşlığa doğru

Çoxtərəfli, praqmatik xarici siyasət kursu yürüdən Azərbaycan beynəlxalq münasibətlər sisteminin bütün subyektləri ilə qarşılıqlı və bərabərhüquqlu əlaqələrin qurulmasını və inkişafını hədəfləyir. İndiyədək ölkəmiz bu istiqamətdə uğurlu siyasi-diplomatik fəaliyyət həyata keçirib. O da aydındır ki, sürətlə dəyişən beynəlxalq münasibətlər fonunda ortaya çıxan reallıqlar geostrateji güc mərkəzləri ilə siyasi-iqtisadi tərəfdaşlıq əlaqələrinə xüsusilə diqqətlə yanaşmağı zəruri edir. Bu baxımdan Azərbaycanın Çin Xalq Respublikası ilə xüsusən son onillikdə yeni siyasi məzmun kəsb edən əlaqələri uğurlu xarici siyasətin mükəmməl nümunəsi hesab oluna bilər.

**Bəşər sivilizasiyasının beşiklərindən biri**

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Çin haqlı olaraq müasir sivilizasiyanın beşiklərindən biri sayılır. Əsrlər boyu çinlilər bəşəriyyətin inkişafına böyük töhfələr veriblər. İpəyi, farforu, barıtı, kağızı və digər faydalı məhsulları bəşəriyyətə bəxş edənlər məhz onlardır. Çinin tarixi abidələri möcüzələr hesab olunur, bir çox təbiət mənzərələri füsunkarlığı ilə heyranedicidir. Böyük Çin səddi qədimdən bu ölkənin zamana tabe olmayan qiyməti simvolu hesab olunur və Yer üzündə kosmosdan müşahidə edilən yeganə abidədir.

Çindən danışarkən Konfutsi təliminə toxunmamaq mümkün deyil. Çünki konfutsiçilik həm siyasət, həm inzibati sistem, həm də iqtisadi və sosial proseslərin ali nizamlayıcısı - bir sözlə, tam çinli həyat tərzinin əsası, Çin sivilizasiyasının mahiyyətidir. İki min ildən artıq zaman ərzində konfutsiçilik çinlilərin şüur və hissləri ni formalaşdırmış, onların etiqadlarına, psixologiyasına, davranışına, təfəkkürünə, qavrayışına, məişətinə və həyat tərzinə təsir etmişdir. Konfutsinin biliklərə, humanizm və yüksək mənəvi ideallar uğrunda mübarizəyə çağırışlarının çinlilərin onlarca nəsli üçün nəhəng tərbiyəvi əhəmiyyəti olmuşdur. Elə bu səbəbdən də bu fəlsəfi dünyagörüşü dünyada diqqətlə izlənilmişdir və bu gün də konfutsizm ümumbəşəri cazibəyə malikdir. Çin cəmiyyəti yüz illər boyu bu fəlsəfi təlimə müraciət etmiş və hazırkı yüksəliş dövrünə gəlib çıxmışdır. Bu gün Çinin inkişafının əsas xüsusiyyətləri elmi inkişaf, sərbəst inkişaf, açıq inkişaf, sülhün inkişafı, qarşılıqlı əlaqə əsasında inkişaf və birgə inkişaf kimi məsələləri özündə ehtiva edir.

Bu gün Çin təkcə qədim tarixi, ənənələri, mədəniyyəti, ixtiraları ilə deyil, həm də müasir dünyada ən sürətlə inkişaf edən bir ölkə kimi diqqəti cəlb edir. Xüsusən son yarım əsrdə bu inkişaf dünyanın bütün başqa böyük ölkələrindən fərqli olaraq fasilə vermədən, təəccüb doğuran sürətlə davam edir. Ümumi daxili məhsul istehsalının həcminə görə hələ XX əsrin birinci yarısında geridə qalan, işğalla üzləşən, yoxsulluğu ilə seçilən yarımfeodal Çin indi dünya iqtisadiyyatının nəhəngi olan ABŞ-la rəqabətdədir.

Məhz Çin rəhbərliyinin uzaqgörən və müdrik siyasəti nəticəsində ölkə misilsiz nailiyyətlər əldə etmişdir. Güclü iqtisadi inkişaf, ölkədaxili sabitlik və təhlükəsizlik, əhalinin yüksələn rifahı bunun aydın göstəricisidir. Sürətli inkişafın əsas səbəblərindən biri də Çin hökumətinin tarixdə üzləşdiyi çətinliklərdən düzgün nəticə çıxarmasıdır.

2035-ci ilə qədər Çində yüksəksəviyyəli sosialist bazar iqtisadiyyatı sistemi tam formalaşacaq və daha da mükəmməlləşəcək, dövlət idarəçiliyi sistemi və imkanları müasirləşəcək. Bu da modernləşdirilmiş sosialist ölkənin tam qurulması üçün möhkəm zəmin yaradacaq.

Çin dövlətinin idarəçilik üsulunun və iqtisadi quruluşunun dünyada bənzəri yoxdur. Çinlilər bunu spesifik xüsusiyyətləri olan idarəçilik forması adlandırır. Bu ölkənin xarici siyasət doktrinasının əsasını başqa ölkələrin daxili işinə qarışmamaq və iqtisadi əlaqələri ikitərəfli qarşılıqlı, faydalı əməkdaşlıq çərçivəsində inkişaf etdirmək təşkil edir. Çin dövlətlərə böyük və kiçikliyinə, varlı və ya kasıb olmasına görə fərq qoymur və bütün digər ölkələrlə münasibətlərdə vahid qarşılıqlı maraqlara söykənən mövqe nümayiş etdirir.

Onu da qeyd etmək yerinə düşər ki, ÇXP-nin



Sədri Si Cinpin 2012-ci ildən ötən 13 il ərzində "Çin xarakterli sosializmi yeni inkişaf epoxası"na daxil etməyi bacaran müdrik liderdir. O, "Bir dövlət, iki sistem" konsepsiyasından çıxış edərək müstəqil siyasət aparır və dövlətinin milli maraqlarını ən yüksək səviyyədə qorumaq nümunəsini ortaya qoyur. Təkqütblü dünya deyil, çoxqütblü dünya reallığını müdafiə edən Çin hegemon dövlət və dövlətlər koalisiyasını qəbul etmir. Heç bir hərbi bloka daxil olmamaq xəttinə sadiqdir. "Vahid Çin" ideyasına münasibətdə dövlətlərin davranışına adekvat olaraq tərəfdaşlarını, rəqiblərini və düşmənlərini müəyyən edir. "Yumşaq güc" idarəçilik metodundan çıxış edərək, beynəlxalq siyasi davranışının konturlarını cızır.

**Dostluğa və mehriban əməkdaşlığa söykənən Azərbaycan-Çin münasibətləri**

Tarixin bütün mərhələlərində dünyada öz yeri, mövqeyi olan ölkə kimi diqqəti cəlb edən Çinlə Azərbaycan arasında əlaqələrin yaranması coğrafi uzaqlığa baxmayaraq, eramızdan əvvələ təsadüf edir. Qədim Azərbaycan dövlətləri beynəlxalq tranzit ticarəti yolunda yerləşdiyinə görə tarixi İpək yolu müəyyən əlaqələrin formalaşmasında əsas vasilə olmuşdur. 2500 il əvvəl tarixi İpək yolu vasitəsilə Azərbaycan və Çin xalqları arasında mədəni və ticari əlaqələr formalaşmışdır. Bu tarixi bağlılıq dahi Azərbaycan şairi Nizami Gəncəvinin XII əsrdə yazdığı əsərlərdə də öz əksini tapmışdır.

Azərbaycan-Çin mədəni əlaqələrinin tarixi mənzərəsinə nəzər saldıqda sovet dövründə bu əlaqələrin xüsusi bir ardıcıllıqla həyata keçirildiyinin şahidi oluruq. Bu, ilk növbədə, onunla əlaqədar idi ki, əvvəlki tarixi dövrlərdən fərqli olaraq Çinlə mədəni əlaqələrin aparılması sovet dövlətinin xüsusi siyasəti çərçivəsində həyata keçirilirdi. Bu əlaqələr ikitərəfli əməkdaşlıq kontekstində reallaşdırılırdı. Azərbaycan da SSRİ-nin tərkib hissəsi kimi ümumdövlət siyasətindən çıxış edərək Çinlə mədəni əməkdaşlıq aparırdı. 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq xalqlarının I Qurultayında Çindən də nümayəndələrin iştirakı yeni tarixi şəraitdə iki ölkə Sovet Azərbaycanı və Çinlə mədəni əlaqələrin qurulması işində mühüm əhəmiyyət kəsb edir.

İqtisadi sahədə əldə etdiyi uğurlara, xarici və daxili siyasətin nəticəsində nail olduğu davamlı inkişafa görə dünyanın diqqətini özünə cəlb etməyi bacaran Çin Xalq Respublikası ilə Azərbaycan arasında çağdaş dövrdə siyasi, iqtisadi, ticarət, enerji, mədəniyyət, kənd təsərrüfatı, turizm, təhsil kimi sahələrdə yüksək səviyyədə əməkdaşlıq əlaqələri formalaşıb.

Müasir Azərbaycan-Çin münasibətlərinin tarixi 1991-ci ildən başlayır. Çin Azərbaycanın müstəqilliyini 27 dekabr 1991-ci ildə tanımış, diplomatik münasibətlər isə 2 aprel 1992-ci ildə qurulmuşdur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ilin martında Çinə rəsmi səfəri bugünkü münasibətlərin dayanıqlı təməlini qoymuşdur. Heydər Əliyevin səfərindən sonra iki ölkə arasında ikitərəfli münasibətlər möhkəmlənmiş, əlaqələr sürətlə inkişaf mərhələsinə qədəm qoymuşdur. Səfər zamanı Azərbaycanla Çin arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında birgə bəyanat, hava yolunun açılması haqqında, elmi-texniki və mədəni əməkdaşlıq, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişlər, ümumilikdə isə ikitərəfli münasibətlərin mühüm hüquqi-normativ bazasını yaradan 8 sənəd imzalanmışdır. 1994-cü ildə Çindən qayıdarkən Almatıda jurnalistlərlə söhbətində Heydər Əliyev səfərin yekunlarını belə dəyərləndirib: *"Çin Xalq Respublikasına səfərimiz böyük tarixi hadisədir. Çünki Çin ilə Azərbaycan arasında heç vaxt bu səviyyədə əlaqələr olmamışdır. Doğrudur, tarixən müəyyən əlaqələr, böyük İpək yolu və s. olduğunu xatırlayırıq. İndi isə təkrar edirəm, dövlətlərarası sıx münasibətlərin yaranması böyük siyasi hadisədir. İlk növbədə, Azərbaycan Respublikası üçün böyük hadisədir".*

Fundamental məsələlərdə hər iki dövlətin və onun liderlərinin mövqeyi tam üst-üstə düşür. Azərbaycan "Vahid Çin" ideyasını qəbul etmişdir və onu həm ikitərəfli, həm də çoxtərəfli formatlarda tam dəstəkləmişdir. Çin isə artıq öz həllini tapmış Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləmişdir. 2005-ci ildə imzalanan Birgə Bəyannamədə də göstərilir ki, Azərbaycan vahid Çin dövlətini tanıyır və Tayvan Çin ərazisinin ayrılmaz hissəsidir. Həmçinin Çin Azərbaycan suverenliyi və ərazi bütövlüyünü dəstəkləmiş, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair müvafiq qətnamələrinə əməl edilməsinə çağırmışdır.

2005-ci ildə imzalanmış Birgə Bəyannamənin 9-cu maddəsində bildirilir: "Azərbaycan tərəfi təsdiq edir ki, dünyada yalnız bir Çin var, Çin Xalq Respublikasının hökuməti Çini təmsil edən yeganə qanuni dövlətdir, Tayvan isə Çin ərazisinin ayrılmaz hissəsidir". 11-ci maddədə isə Çin tərəfi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə dəstək verdiyini təsdiqləyir və BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair qətnamələrinə əməl edilməsinə çağırır, bu münaqişənin sülh yolu ilə həll edilməsinə tərəfdar olduğunu, beynəlxalq ictimaiyyətin bu istiqamətdə göstərdiyi səyləri dəstəklədiyini bildirir.

2015-ci ildə imzalanmış Birgə Bəyannamədə də tərəflərin bir-birinin problemlərinə ortaq yanaşması əksini tapıb. 2008-ci il martın 14-də Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətinə dair BMT Baş Məclisi tərəfindən qəbul olunan qətnamədə Çin Azərbaycanın lehinə səs verib, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib və münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirib.

Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyən Çin 2020-ci il sentyabrın 27-də - Vətən müharibəsi başlayanda da ədalətli mövqe ortaya qoydu. Ən mühüm məqamlardan biri də odur ki, Çin artıq keçmişdə qalan Qarabağ müharibəsinin nəticələrini tanıyır.

*(davamı gələn sayımızda)*

**Akademik Ziyad Səmədzadə**

**"Azərbaycan" qəzeti, 1 may 2025-ci il**



# 9 мая – День Победы над фашизмом

*«История и сегодня, и в будущем должна знать, что заслуги, деятельность, роль Азербайджанской Республики во Второй Мировой войне, Великой Отечественной войне были большими».*

***Гейдар АЛИЕВ,***
***общенациональный лидер азербайджанского народа***

«Азербайджан внес весомый вклад в нашу общую победу. При общей численности населения Азербайджана в тот период в 3 миллиона 400 тысяч человек на фронт ушло около 700 тысяч. На полях сражений погибло более 350 тысяч. 130 уроженцев Азербайджана получили звание Героя Советского Союза. В годы войны нефтяники Азербайджана поставляли на фронт более 80 про-центов нефти и нефтепродуктов, 96 процентов масел для военной техники. Все это было произ-ведено в тот период в Азербайджане – проценты к общему производству указанных продуктов в тот период в СССР. В Азербайджане производилось более 130 видов вооружения, боеприпасов и техники, в том числе знаменитые «Катюши», истребители Як-3.
В Баку функционировал 41 военный госпиталь, где прошли лечение 440 тысяч раненых. В марте 1942 года воины Азербайджанской 416-й стрелковой дивизии, также известной как Таганрогская, приняли присягу и начали свой боевой путь на Северном Кавказе, который завершили в Берлине. 21 апреля 1945 года 416-я Азербайджанская стрелковая дивизия одна из первых ворвалась в окраины Берлина. 2 мая бойцы дивизии под командованием полковника Рашида Меджидова водрузили Знамя Победы над Бранденбургскими воротами.
Наш общий праздник Победы 9 Мая является важным фактором дальнейшего сотрудничества государств-членов СНГ. Азербайджан придает этому сотрудничеству большое значение и будет и впредь вносить свой вклад в дело укрепления нашего взаимодействия».

**Ильхам АЛИЕВ**
**Президент Азербайджанской Республики**



## Вклад азербайджанского народа в Великую Победу

В годы войны Азербайджан был главным поставщиком на фронт нефти и нефтепродуктов. Свыше 70% общего объема производимой в тот период в СССР нефти давал Баку. Тысячи нефтяников уходили воевать на фронт, их место на промыслах занимали женщины.
Германское командование уделяло особое внимание нефтяным залежам Баку и в ходе битвы за Кавказ ставило задачей взять контроль над бакинским нефтегазоносным районом.
В период с 1941 по 1945 годы в РККА было призвано более 600 тысяч жителей Азербайджана, погибло не менее половины из них. Согласно статистическому исследованию «Россия и СССР в войнах XX века», безвозвратные потери этнических азербайджанцев в войне составили 58,4 тыс. человек, в немецком плену находились 20 850 азербайджанцев. Там же находились тысячи представителей других народов, мобилизованных в Азербайджане.
На территории Азербайджана было создано 87 батальонов, 1123 отряда самообороны, были сформированы 77-я, 223-я, 396-я, 402-я и 416-я национальные стрелковые дивизии, с боями прошедшие от предгорьев Кавказа до Прибалтики, Восточной Европы и Берлина. Как писал маршал Жуков в книге «Воспоминания и размышления», «среди первых ворвавшихся в Берлин с востока была 416-я дивизия: командир - Д.М. Сызранов, начальник политотдела - полковник Р.А. Меджидов».
Более 36 тысяч воинов-азербайджанцев были награждены орденами и медалями Советского Союза. В годы Великой Отечественной войны звание Героя Советского Союза было присвоено 43 азербайджанцам, 14 из них были награждены посмертно.

## Распоряжение Президента Азербайджанской Республики О предоставлении единовременной материальной помощи участникам Второй мировой войны 1941-1945 годов, вдовам погибших или скончавшихся впоследствии бойцов, лицам, награжденным орденами и медалями за самоотверженный труд в тылу

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в связи с 80-й годовщиной Победы во Второй мировой войне постановляю:
1.Предоставить единовременную материальную помощь в размере 2 500,0 (две тысячи пятьсот) маната участникам Второй мировой войны 1941-1945 годов, в размере 1250,0 (одна тысяча двести пятьдесят) маната – вдовам погибших во Второй мировой войне или скончавшихся впоследствии бойцов, лицам, награжденным орденами и медалями за самоотверженный труд в тылу в тот период, работникам специальных формирований, выполнявших в годы Второй мировой войны поручения в интересах армии и флота в тылу сражавшихся фронтов или в оперативных зонах сражавшихся флотов, лицам, награжденным соответствующей медалью и нагрудным знаком за оборону города Ленинград в период Второй мировой войны, а также участникам блокады города Ленинград.
2.В целях исполнения части 1 настоящего Распоряжения:
2.1.выделить из предусмотренного в государственном бюджете Азербайджанской Республики на 2025 год резервного фонда Президента Азербайджанской Республики 3,2 миллиона (три миллиона двести тысяч) манатов;
2.2.Министерству финансов Азербайджанской Республики обеспечить перечисление средств, предусмотренных в пункте 2.1 настоящего Распоряжения, на специальный счет Министерства труда и социальной защиты населения Азербайджанской Республики;
2.3.Министерству труда и социальной защиты населения Азербайджанской Республики обеспечить выплату единовременной материальной помощи лицам, предусмотренным в части 1 настоящего Распоряжения.
3.Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев**
**Президент Азербайджанской Республики,**
**город Баку, 21 апреля 2025 года**

## ПОСТАНОВЛЕНИЕ ЦК КП(б) АЗЕРБАЙДЖАНА «ОБ ОРГАНИЗАЦИИ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР»

**25 декабря 1944 г.**

ЦК КП(б) Азербайджана отмечает, что за годы Советской власти в республике развернулась широкая сеть научно-исследовательских и высших учебных заведений, в том числе Азербайджанский филиал Академии наук СССР в составе крупных научно-исследовательских институтов, секторов и музеев, научных баз в Нах. АССР, НКАО, Кировабаде и Кубе, а также Азербайджанский медицинский институт, Азербайджанский индустриальный институт им. Азизбекова, Азербайджанский государственный университет им. С.М.Кирова, Азербайджанский научно-исследовательский институт им. Куйбышева, Азербайджанский сельскохозяйственный институт, Азербайджанский научно-исследовательский сельскохозяйственный институт и другие, оборудованные мощными лабораториями, кабинетами и библи-отеками.
В имеющихся в республике 60 научно-исследовательских учреждениях и вузах в настоящее время работают 150 докторов наук и профессоров, 350 кандидатов наук и доцентов.
Учитывая, что Азербайджанский филиал Академии наук за 10 лет своего существования разработал ряд важнейших научных проблем в области геологии, ботаники, физики, химии, философии, истории, языка и литературы и стал центром научно-исследовательской работы в республике, в котором сосредоточены основные высококвалифицированные научные кадры, ЦК КП(б) Азербайджана считает назревшим вопрос об организации Академии наук Азербайджанской ССР на базе Существующего филиала Академии наук СССР, что послужит еще большим стимулом для дальнейшего развития народного хозяйства и культуры республики.
Бюро ЦК КП (б) Азербайджана постановляет:
***1. Просить ЦК ВКП (б) разрешить организацию Академии наук Азербайджанской ССР на базе АзФАНа и его институтов.***
***2. Для проведения подготовительных мероприятий к открытию Академии наук Азербайджанской ССР создать комиссию.***

**АПД УДП АР, ф. 1, оп. 129. д. 79, лл. 139-140.**

## Видные ученые-химики Азербайджана, внесшие вклад в увеличение производства нефтепродуктов оборонного значения

***Юсиф Гейдар оглу Мамедалиев*** родился в 1905 год в городе Ордубад Нахи-чеванской АР. В 1923 году он поступает в Высший Бакинский педагогический институт.
В 1929 году поступил на второй курс химического факультета МГУ, который окончил в 1932 году. Он был учеником Н.Д.Зелинского и А.А.Баландина и одним из первых выпускников лаборатории органического катализа кафедры органической химии химического факультета по специальности «органический катализ».
Начиная с 1934 года, он вел большую педагогическую работу в Азербайджанском университете им. С.М.Кирова, последовательно занимая должности доцента, профессора, зав.кафедрой и ректора (1954- 1958 гг.).
В 1933 году Юсифу



Мамедалиеву была присуждена ученая степень кандидата химических наук без защиты диссертации.
В 1942 году стал доктором химических наук и в 1943 году профессором, в 1945 году академиком АН Азербайджанской ССР (с момента создания этой академии). Был директором Нефтяного института АН АзССР. В 1946 году выдвинут на работу в Министерство нефтяной промышленности СССР, где стал председателем Научно-технического совета министерства.
В 1947-1951 годах и в 1958-1961 годах Юсиф Гейдар оглу Мамедалиев избирался Президентом АН Азербайджанской ССР. По инициативе Юсифа Мамедалиева был создан Институт нефтехимических процессов в Баку.
В 1958 году Юсиф Мамедалиев избран членом-корреспондентом АН СССР. Он удостоен многих правительственных наград. Высшая награда – орден Ленина – была вручена ему в годы Великой Отечественной войны за актив-ную работу по обеспечение фронта важнейшими нефтепродуктами.

## Знай, помни, гордись...

***Сабит Оруджев***

Государственный деятель. Министр газовой промышленности СССР, член-корреспондент АН Азербайджана (1967), Герой Социалистического Труда (1980), лауреат Ленинской (1970) и Сталинских премий.
С 1939 г. работал в тресте «Орджоникидзенефть» «Азнефтекомбинат»а последовательно занимая должности заместителя заведующего 1-м промыслом, заведующего 9-м промыслом, управляющего трестом, затем – заместитель начальника объединения «Азнефть», управляющий трестами «Сталиннефть» и «Бузовнынефть».
В 28 лет он получил орден Трудового Красного Знамени и был приглашен в Москву на встречу со Сталиным. В начале войны, когда остро сказался недостаток рабочих, Оруджев организовал курсы для обучения азам профессии для



стариков, женщин и детей. В течение полугода ему удалось восстановить работу треста, но обстановка была крайне неспокойной.
В 1943 г. Оруджев защитил диссертацию. Предложенный им метод освоения глубоких скважин аэризацией позволял минимизировать издержки по добыче нефти и увеличить коэффициент нефтеотдачи.
Уроженец бакинского селения Новханы, Оруджев много лет был нефтяником, занимал высокие посты заместителя председателя Совета министров Азербайджанской ССР, первого заместителя министра нефтяной промышленности СССР.
А когда судьба привела его в газовую отрасль, он до конца дней своих, что был здесь министром (с 1972 по 1981 год), успел сделать очень много. В нынешнем Газпроме считают одной из главных заслуг Оруджева то, что он сразу же постарался перевести отрасль на новые экономические рельсы.
Если говорить коротко, сделал решительные шаги в направлении реформирования министерства, превращения его в мощное, хорошо управляемое предприятие, что в конечном счете ускорило создание Единой системы газоснабжения, равной которой нет в мире и сейчас.

# 9 мая – День Победы над фашизмом

## Они служили науке и Родине

## МИР-КАСИМОВ МИР АСАДУЛЛА МИР АЛЕСКЕР оглу (1883-1958)

Первый ученый - хирург азербайджанец. Доктор медицинских наук, профессор, академик АН Азербайджана, заслуженный деятель науки Азербайджана, основатель современного медицинского образования и науки в Азербайджане.
Родился 17 ноября 1883 году в Баку, в семье преподавателя арабского языка мусульманской духовной семинарии сеида Мир-Алескера.
В 1898 году поступил в Бакинскую городскую гимназию.
В 1908 году М.А.Мир-Касимов поступает на медицинский факультет Новороссийского университета (так в то время назывался Одесский университет).
В 1913 году окончил медицинский факультет Новороссийского университета (Одесса), избрав специальность хирургия.
В 1916 году М.А. Мир-Касимов возвратился в родной Баку, и с того времени вся его деятельность проходила здесь.
С 1920 года М.А.Мир-Касимов – старший орди-натор хирургического отделения бывшей Михайловской больницы, в 1923 году



был привлечен к учебно-педагогической работе на медицинском факультете Азербайджанского государственного университета.
Вначале он назначается на должность проректора, затем ординатора кафедры оперативной хирургии и топографической анатомии, а в 1926 году – ассистентом кафедры госпитальной хирургии, возглавляемой крупным хирургом Б.К.Финкельштейном.
С этого же времени в течение 35 лет жизнь и деятельность М.А.Мир-Касимова связана с медицинским факультетом АГУ.
В 1926 году он был направлен в передовые урологические клиники Германии. Далее его вновь вместе с такими талантливыми врачами, как М.Гаджи-Касимов, М.А. Топчубашев, И.А.Ахундов и другими вновь командируют в Германию в хирургические клиники Берлина и Мюнхена.
**В 1927 году М.А.Мир-Касимов первым из азербайджанцев защитил докторскую диссертацию на тему:** «Материалы к изучению мочекаменной болезни в Азербайд-жане», которая и по сей день не потеряла своей актуальности. С 1935 г. заслуженный деятель науки Азерб. ССР.
23 марта 1945 года Азербайджанский филиал АН СССР был преобразован в Акаде-мию наук Азербайджанской ССР. Президентом был избран М.А.Мир-Касимов.
В 1956 году академик М.А.Мир-Касимов был избран членом Всемирной ассоциации хирургов. Мир-Касымов Мир-Асадулла Мир-Алескер оглу неоднократно избирался депутатом Верховного Совета СССР. Был награжден орденом Ленина, дважды – орденом Трудового Красного Знамени и многими медалями.

## НАГИЕВ МУРТУЗА ФАТУЛЛА оглу (1908-1975)

Начало научно-исследовательской работы М. Ф. Нагиева относится к его студенческим годам. В 1933 г. в газете «За нефтяную технику» – органе объединения «Азнефть» и Комитета Союза нефтяников – была опубликована статья «Стране нужен бензин антидетонирующих качеств», в которой автор предлагал получать бензин по разработанном им способу.
В 1934 г. на это изобретение М. Ф. Нагиев получает авторское свидетельство. В 1940 г. М. Ф. Нагиев защищает кандидатскую диссертацию на тему «Исследование выходов бензина при крекинге с рециркуляцией».
В 1941 г. М. Ф. Нагиев публикует монографию «Технология крекинга и расчет аппаратуры».
Проводя многочисленные исследования разнообразных процессов химической



